

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 227 (23.869)

7 dekabr 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da Quba rayonuna səfər ediblər.

Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva ulu öndər Heydər Əliyevin Quba şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Səfər zamanı Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra yaradılan şəraitlə tanışlıq olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva dekabrın 6-da "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışında iştirak ediblər.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2021-ci il 6 dekabr tarixli sərəncamları ilə Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyaları sahəsində səmərəli fəaliyyətinə görə bir qrup şəxs orden, medal və fəxri ada layiq görülmüşdür. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının rabitə və informasiya texnologiyaları sahəsində çalışanlar da vardır:

**Ağayev Yasin Nadir oğlu**

"Əməkdar mühəndis" fəxri adı ilə,

**Abbasov Cəmil Salman oğlu**

**Ələkbərov Elçin Məhərrəm oğlu**

"Tərəqqi" medalı ilə təltif edilmişlər.

## İnnovativ inkişaf – texnoloji yeniliklərin tətbiqi muxtar respublikada dövlət siyasətinin prioritet istiqamətini təşkil edir

***Müasir dövrümüzdə informasiya-kommunikasiya texnologiyalarının təsir dairəsi genişlənərək dövlət strukturlarını, iqtisadi və sosial sahələri, elm və təhsili, mədəniyyəti, bütövlükdə cəmiyyəti əhatə edir. Elə buna görə də innovasiya proseslərinin daha geniş yayıldığı yerlər dünyanın ən qabaqcıl cəmiyyətləri sayılır.***




Son illər təhsil sistemində yeni inkişaf xəttinin müəyyənləşdirilməsi, bu sahədə həyata keçirilən islahatların daha da dərinləşməsi göstərir ki, təhsil sektoruna önəm dövlət siyasətinin əsas prioritetlərindən biri kimi aktuallaşır. Naxçıvan Muxtar Respublikasında da bu istiqamətlər üzrə yeniliklərin tətbiqi və inkişaf etdirilməsi üçün məqsədyönlü addımlar atılır.

Naxçıvan Dövlət Universiteti qabaqcıl texniki biliklərin tələbələrə çatdırılması işində müasir vasitə və metodların işlənib tətbiq olunduğu elm ocaqlarındandır. Bu sahədə olan yeniliklərdən biri də "Naxçıvan Dövlət Universitetinin nəzdində Texnologiyalar Parkının yaradılması haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 14 dekabr tarixli Sərəncamı olmuşdur. Bu innovativ xarakterli sahə ali təhsil müəssisəsinin imkanlarını daha da genişləndirməklə yanaşı, innovativ layihələrin hazırlanması və tətbiqinə son dərəcə böyük imkan yaradacaq.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, belə texnoparkın yaradılması gələcəyə hesablanan faydalı kapitaldır. Bunun sayəsində büdcəyə gəlir gələcək, dövlətə vergi ödənəcək və ən əsası texnoloji biliklərə yiyələnən və bunu inkişaf etdirmək üçün lazımi şəraitlə təmin olunan yeni nəsil formalaşacaq. Bu, eyni zamanda təkcə universitet sisteminə deyil, inkişaf edərək ölkəmizdə hərb sahəsindən tutmuş digər sahələrədək səmərəli fəaliyyət mexanizminin tədbiqinə böyük töhfə olacaq.

Texnopark – vahid infrastruktur sərhədlərində elm və texniki fəaliyyətlə məşğul olan şirkətlər birliyidir. Bu yalnız zamanla əldə edilə biləcək vaxtı uzadılmış kapital qoyuluşudur. Texnoparkın əsas komponentləri innovasiya yaradan şirkətlər və komandalar, ali məktəblərin texniki və idarəedici kadrlarıdır. Finlandiyanın Otaniem texnoparkının banisi Mervi Kekiyə görə, texnoparklar məkan deyil, prosesdir və onun əsas məqsədi şirkətlərə kömək etməkdir. Texnoparklar universitet, sənaye, araşdırma mərkəzləri, sahibkarlar və bazarlar arasındakı əməkdaşlığı artırmaq, bilik və texnologiya transferini asanlaşdırmaq məqsədilə yüksək dəyərli tədqiqat və inkişafa söykənən qabaqcıl texnologiyalı məhsul və xidmətlərin istehsalına uyğun infrastrukturdur.

Naxçıvan Dövlət Universitetinin ərazisində texnopark üçün lazımi şərait və potensial var. Qurulacaq texnoparkda energetika, gülkarlıq, tingçilik, kənd təsərrüfatı və aqronomluq, coğrafiya, üzümçülük, meliorasiya, arıçılıq sahələri, tədris otaqları və sərgi biopark, texnopark binaları, eləcə də Nəbatat bağı fəaliyyət göstərəcəkdir. Texnoparkın layihəsində, həmçinin texnoservis, nano araşdırmalar, biotexnologiyalar, prototip mərkəzləri, proqramlaşdırma və avtomatlaşdırma otaqları, Naxçıvan məhsullarının, Microsoft şirkətinin, Naxtel 4G operatorunun, CİSCO, KOİCA, Bakunity və digər gələcək rezident şirkətlərin ofisləri, innovasiya, layihələrin əlaqələndirilməsi, informasiya texnologiyaları xidmətləri, süni intellekt elmi-tədqiqat mərkəzləri, incəsənət, dizayn və memarlıq layihələri xidməti, elektronika və digər iş otaqlarının yaradılması da nəzərdə tutulub. Layihədə Biznes inkubatoru, ideya bankı, Co-working mərkəzi, startap mərkəzləri də əks edilib.

Texnologiyalar Parkında qurulanların hamısı nanotexnologiyalara əsaslanacaq. Texnopark tələbələrin dərsləri həm nəzəri, həm də praktik olaraq mənimsəməsinə imkan verəcək. Bütün bunlar kadr potensialının inkişafı ilə yanaşı, gənclərin istedadlarının üzə çıxarılması, ideyaların reallaşması və startap təşəbbüslərinin dəstəklənməsi sahəsində mühüm addımdır.

Texnoparkların mövcud olduğu regionun və ölkənin texnoloji və iqtisadi inkişafına əhəmiyyətli töhfələr verdiyini söyləyə bilərik. Amma bunun üçün bir qədər zaman tələb olunur. Qurulmasından, təxminən, 5-10 il sonra gözlənilən nəticələrin reallaşması mümkündür. Texnoparklar qurulduqları bölgədə məşğulluq imkanlarını artırır, belə yerlərdə regional inkişaf baş verir, təhsilin səviyyəsi artır.

Texnoparklar beynəlxalq təcrübədə hələ ötən əsrin 50-ci illərində ABŞ-ın Stenford Universitetində ilk elmi-texnoloji park adı ilə yaranmışdır. Yarımkeçirici tranzistorun ixtira olunması ilə əlaqədar yarımkeçiricilər elektronikasının sürətlə inkişaf etdiyi bir dövrdə sözügedən universitet özünün istifadə etmədiyi binalarını və boş ərazilərini bu məsələ ilə məşğul olan yaradıcı kollektivlərə nisbətən ucuz qiymətə icarəyə verdi.

Dünya texnoparklarının 42 faizi ABŞ-dadır. Amerika texnoparkları, əsasən, universitet bazaları əsasında yaradılmışdır. Digər texnoparkların 34 faizi Avropa ölkələrinin, 11 faizi Çinin, 13 faizi isə digər ölkələrin payına düşür. Texnoparklar, əsasən, ali məktəblərin və iri elmi-texniki mərkəzlərin nəzdində yaradılır. Dünya təcrübəsində texnopark ideyası ən çox Şanxay və Honqkonq regionlarında reallaşdırılmışdır. Beynəlxalq təcrübədə texnoparkların fəaliyyəti üçün vacib olan şərtlərdən biri onun yerləşdiyi ərazidir. Həmin ərazi üçün əsas şərtlər – texnoparklar şəhərə yaxın yerdə yerləşməli, əhalinin yaşayışı üçün əlverişli şəraitli regionda olmalı, elmi parklar elmi-tədqiqat və təhsil müəssisəsinin bazası olan regionda və yüksəkixtisaslı elmi-tədqiqat işi ilə məşğul olan kadrlardan ibarət olmalı, elmi parklar elmi-tədqiqat işləri aparan və yeni texnologiya işləmələri hazırlamağa qadir olan elmi-tədqiqat və universitetlərə yaxın olan yerdə yerləşməlidir.

Texnoparkların modelləri bir-birindən kifayət qədər fərqlidir. Elmi Parkların Beynəlxalq Assosiasiyası (IASP) dünyanın 63 ölkəsində texnoparkların fəaliyyəti ilə əlaqədar toplanmış qabaqcıl təcrübəni təhlil edərək texnopark anlayışını ümumiləşdirən normalar, qaydalar və tələblər işləyib hazırlamış, onun qlobal xarakter daşıdığını qeyd etmişdir. Elmi park, texnoloji rayon, tədqiqat parkı və digər qurumlar arasında müəyyən fərqlərin olmasına baxmayaraq, ümumi məqsədlər, elementlər və metodologiyalar onları vahid bir anlayış – texnopark anlayışı daxilində toplamağa imkan vermişdir. Universitet texnoparkları ali məktəblər əsasında, bəzən isə universitetlə sənaye müəssisəsinin strateji əməkdaşlığı nəticəsində yaradılır. Universitet texnoparklarının yaradılmasının 3 əsas məqsədi – toplanmış elmi biliklərin kommersiyalaşdırılması, ali məktəbdə elmi işlərin cəlbediciliyini artırmağın təmin edilməsi, praktik məsələlərin nəticəsi kimi yeni biliklərin axınının təmin edilməsi olur.

Texnoparklar ölkənin innovasiya və istehsal gücünün artmasına imkan yaradır, işsizlik nisbətini azaldır, dünyadakı imicini və hörmətini artırır, elm və texnologiya səviyyəsi yüksəlir, burada ixtisaslaşmış əmək inkişaf edir və ölkə beynəlxalq bazara açılır. Naxçıvan Dövlət Universitetində elmtutumlu innovasiya şirkətlərinin inkişafı məqsədilə texnoparkın yaradılması muxtar respublikanın təhsil tarixində mühüm hadisədir, təhsilin inkişafına dünya təhsil sisteminə inteqrasiyasına mühüm töhfədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov 16 iyun 2021-ci il tarixdə Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının təməlatma mərasimində iştirak etmiş, burada çıxış edərkən demişdir: ***"Naxçıvan Dövlət Universitetinin nəzdində Texnologiyalar Parkının yaradılması zamanın tələbidir. Çünki XX əsr texnika, XXI əsr isə texnologiyalar əsridir. Təhsil də yeni texnologiyalar üzərində tədris olunmalı və gənclər müasir dövrün tələblərinə uyğun təhsil almalıdırlar. Texnopark tələbələrin dərsləri həm nəzəri, həm də praktik olaraq mənimsəmələrinə imkan verəcəkdir".***

Heç şübhəsiz ki, Naxçıvan Dövlət Universitetində yeni yaradılacaq texnoparkdan da, bu mənada, gözləntilər çoxdur. İcra olunan planlı və strategiyalı işlər sayəsində bu sahənin yaxın gələcəyi üçün böyük ümidlər yaranır. Bu ümidlər qədim diyarın simasını da yeniləyəcək, Naxçıvanı texnologiyalar məkanına çevirəcək.


**Adilə QULİYEVA**

***Naxçıvan Dövlət Universitetinin müəllimi***


Elektron imza elektron məkanda imzalamanı təmin edən və bütün beynəlxalq təhlükəsizlik standartlarına cavab verən tam təkmil imzalama vasitəsidir.

## 11 ay ərzində muxtar respublika üzrə 432 nəfərə elektron imza sertifikatı verilmişdir

Yəni hər hansı bir elektron xidmətdən istifadə edərkən, elektron yazışmalar zamanı, elektron hökumət portalında qeydiyyatdan keçərkən vətəndaş öz elektron imza sertifikatı ilə kimliyini təsdiq edir, sistem onu eyniləşdirir və virtual mühitdə istədiyi əməliyyatı aparmağa imkan verir. Bir sözlə, virtual məkanda şəxsiyyətimizi təsdiq edən sənəd elektron imza sertifikatıdır.

Elektron hökumətin əsas atributlarından sayılan elektron imza muxtar respublikada da uğurla tətbiq edilməkdədir. Elektron imza sertifikatının tətbiqi və dövlət orqanlarında elektron xidmətlərin göstərilməsinin bir sıra üstünlükləri vardır. Belə ki, vaxta qənaət, məxfilik, rahatlıq, bütünlük, tanınma, işgüzar münasibətlərin və əlaqələrin tamamilə elektron formata keçirilməsini və vətəndaş-hökumət arasında elektron informasiya münasibətlərini təmin edir.

Elektron imzanın əsas mahiyyəti informasiyanı hazırlayan şəxsin həqiqiliyinin yoxlanılması və üçüncü tərəfə informasiyanı yaradan şəxsi müəyyən etməsinə imkan yaratmasıdır.

Ötən dövr ərzində muxtar respublikada 132 dövlət qurumu, 61 hüquqi şəxs, 230 sahibkar və 9-u vətəndaş olmaqla, ümumilikdə, 432 elektron imza sertifikatı qanunvericiliklə nəzərdə tutulmuş qaydada hazırlanaraq aidiyyəti üzrə təqdim edilib.

Elektron imzadan bütün vətəndaşlar, dövlət orqanları, fiziki və hüquqi şəxslər istifadə edə bilərlər. İmzanı almaq üçün qanunvericiliklə müəyyən olunmuş sənədlər Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinə təqdim olunmalıdır. Sertifikat əldə etmək üçün ödəniləcək dövlət rüsumu dövlət qurumları üçün 58 AZN, hüquqi şəxslər üçün 72 AZN, sahibkarlar üçün 36 AZN, vətəndaşlar üçün 18 AZN təşkil edir, istifadə müddəti isə 3 ildir.

Elektron imza və ondan istifadə qaydaları barədə ətraflı məlumatları *www.rabite.nmr.az* saytı vasitəsilə əldə etmək olar.

Azərbaycan Respublikasının qanunlarına əsasən elektron imza ilə imzalanan elektron sənəd əl imzası ilə imzalanan və möhürlənən sənədə bərabər tutulur.


***Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyinin mətbuat xidməti***

***Muxtar respublikamızda həyata keçirilən inkişaf strategiyasının prioritetlərindən biri də bütün yaşayış məntəqələrində, xüsusən bölgələrdə kiçik və orta sahibkarlığın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunmasıdır. Məhz ucqar ərazilərdə, sərhəd bölgələrimizdə də bu yolla daha çox iş imkanlarının yaradılması dövlətimiz tərəfindən həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. Daxili bazarda yerli istehsalın xüsusi çəkisinin gündən-günə artması da bununla bağlıdır. Bu uğurların qazanılmasında yeni və mütərəqqi təsərrüfat forması olan ailə təsərrüfatlarının da böyük əməyi var. Naxçıvanda bu təsərrüfat forması ilə məşğul olan insanlara hər cür köməklik göstərilir. Görülən işlərin nəticəsidir ki, belə təsərrüfatların sayı ildən-ilə artır. Muxtar respublikanın bütün rayonlarında yaşayan ailələrə göstərilən qayğı, açılan imkanlar nümunəvi ailə təsərrüfatlarının iş təcrübəsinin yayılmasına imkan verir.***

# Dövlətimizin həyata keçirdiyi tədbirlərin bəhrəsi – ailə təsərrüfatları

Culfa rayonunda həmsöhbət olduğum ailə təsərrüfatçısı hazırladığı məhsullar içərisində xüsusi zövqlə qablaşdırılan müxtəlif mürəbbələri, qovurmaları, şəfalı bitkiləri, meyvə qurularını, turşuları, süd məhsullarını, müalicəvi içkiləri və Naxçıvan mətbəxinə xas adını sadalamadığımız neçə-neçə dadlı-tamlı təamları görmək olar. ***Kırna kənd sakini Çiçək Bayramova*** deyir ki, qızlarımla birlikdə əriştə, yarma, bulqur, çörək, südlü çörək, fətir, dastana, lavaş çeşidləri, mürəbbələr, lavaşa, cem, turşular, kompotlar, çaxırlar, gül suyu hazırlayırıq. Təsərrüfatçı ötən dövrdə quru meyvə sahəsində bir yenilik kimi ilk dəfə olaraq qovun və qarpız qurutmasını sınaqdan çıxarıb və uğurlu alınıb. Ötən illər ərzində təsərrüfat fəaliyyətində bir sıra nailiyyətlər qazanan Çiçək xanım Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Avropa İttifaqı, Azərbaycan Mikromaliyyə Assosiasiyasının təşkilatçılığı ilə keçirilən "Qadınların dayanıqlı inkişaf üçün səlahiyyətləndirilməsi" adlı layihə çərçivəsində muxtar respublikamızda keçirilən "Öz biznesinə başla və onu inkişaf etdir" təlimlərində uğurla iştirak edib, Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin diplomu ilə təltif olunub. Bundan başqa, 2018-ci ildə "Ailə təsərrüfatı məhsulları", 2019-cu ildə isə "Kətə" festivallarında "Ən yaxşı məhsul" nominasiyası üzrə birinci yerə layiq görülüb. Ailə təsərrüfatının inkişafında fərqləndiyinə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 7 mart tarixli Sərəncamı ilə "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan Çiçək Bayramova minnətdarlıq hissi ilə razılığını bildirir: – Muxtar respublikada əmək adamlarının səmərəli fəaliyyəti üçün geniş imkanlar var, ailə təsərrüfatçıları daim diqqətdə saxlanılır. Belə təsərrüfatların inkişafı, bu sahəyə göstərilən dəstək bizi daha şövqlə çalışmağa sövq edir. Abad kəndlərimiz, rahat yollarımız var. Məhsullarımızı heç bir çətinlik çəkmədən bazara çıxara bilir, keçirilən festivallarda, yarmarkalarda iştirak edirik. İstehsal olunan məhsullarımızın nəfis şəkildə qablaşdırılması alıcı marağını, tələbatı daha da artırıb. İlbəil daha çox məhsulun istehsalına can atırıq. Əsas məqsədimiz ev şəraitində istehsal edilən konservləşdirilmiş meyvə-tərəvəz məhsullarına olan tələbatın yerli istehsal hesabına ödənilməsinə nail olmaqdır. Son illərdə Naxçıvanda keçirilən tədbirlər biz təsərrüfatçılar üçün əsl stimul mənbəyinə çevrilib. Şəxsən mən özüm bu tədbirlər sayəsində istehsal etdiyim məhsulları geniş alıcı kütləsinə tanıdaraq böyük qazanc əldə etmişəm. Ötən günlərdə keçirilən yarmarkaya çıxardığım 5 cür çaxır, 9 növdə sirkə, müxtəlif turşu, kompot və mürəbbələrin xeyli hissəsini sata bildim. Deyim ki, bir sıra xəstəliklərin müalicəsində istifadə olunan gül suyu, cəviz sirkəsi, gilənar çaxırına böyük maraq oldu. Var olsun dövlətimizi ki biz təsərrüfat adamlarının əməyini lazımınca qiymətləndirir.





Turizm məkanları ilə həm yerli sakinlərin, həm də xarici qonaqların sevimli ünvanına çevrilən Şahbuz rayonunda son illərdə xeyli sayda ailə təsərrüfatları qurulub. Zəhmətkeş şahbuzlular daxili bazarda məhsul bolluğu yaratmaq üçün səylə çalışırlar. ***Şahbuz şəhər sakini Fəxrəntac Bağırova*** da muxtar respublikada uğur qazanan qadın ailə təsərrüfatçılarındandır. Cari ildə fəaliyyəti yüksək qiymətləndirilərək "Rəşadətli əməyə görə" nişanı ilə təltif olunan təsərrüfatçı xüsusi zövqlə hazırladığı cürbəcür çeşidli məhsulları göstərərək deyir: – Şahbuzun dağları əsl şəfa mənbəyidir. Artıq uzun illərdir, bu işlərlə məşğul olduğum üçün bu bitkilərin, necə deyərlər, dilinə yaxşı bələdəm, yığıb-qurutma, saxlama və istifadə qaydalarını gözəl bilirəm. Hər il torpaq oyanan dövrdən başlayaraq ailə üzvlərimlə birgə dağlara, təpələrə üz tuturam. Yığdığımız ot bitkilərini günün altına sərir, hər tərəfinin qurumasına çalışırıq. Məsləhət üçün deyim ki, faydalı otları səhərin erkən saatlarında yığmaq lazım deyil. Bunun üçün şeh qalxmağını gözləməlisən. Səhər saat 11-dən sonra yığılan otlar qaralmır, iyini və tərkibini də olduğu kimi saxlayır. Gördüyünüz bu otların hər birinin faydalı xüsusiyyətləri barədə öyrəndiklərimi alıcılara da izah edirəm. Məsələn, həmərsin böyrək iltihabını, qantəpər, əvəlik soyuqdəyməni aradan götürür. Yemişan çiçəyi qan-damar sistemi xəstəlikləri, gülxətmi astma-bronxial və öskürək üçün faydalıdır. Çobanyastığı iltihabın qarşısını alır, solmazçiçəyindən öd və mədə-bağırsaq xəstəliklərinin müalicəsində istifadə olunur. Mən də hər il bir çox tədbirlərdə iştirak edir, dövlətimizin yaratdığı imkanlardan lazımınca bəhrələnirəm. Təsərrüfat adamları üçün yaradılan şəraitə, əməyimə verilən yüksək qiymətə görə dövlətimizə minnətdarlığımı bildirirəm.

Sərhəd bölgəmiz sayılan Sədərək rayonunda son illərdə xeyli sayda ailə təsərrüfatları formalaşıb. ***Sədərək kənd sakini Həmzə İsmayılov*** beş ilə yaxındır ki, ailə təsərrüfatı yaradıb. O, 12 arı ailəsinə qulluq edir. Bununla yanaşı, meyvəqurutma işini də gözəl bilir. Deyir ki, meyvələri öz bağlarından yığır, ehtiyac yarandıqda qonşulardan da satın alırlar. Təsərrüfat fəaliyyətini artırmaq üçün xüsusi olaraq meyvəqurudan aparat da alıblar. Müsahibimiz onu da bildirir ki, muxtar respublikada təşkil olunan yarmarkalar həm məhsulları tanıtmaq baxımından, həm də qazanc əldə etmək üçün çox yaxşı haldır: – Rayonumuzda hər cür imkanlar var. Kim istəsə öz ailə təsərrüfatını qurub qazanc əldə edə bilər. Dövlətimizin qayğısını hər an hiss edirik. Sədərəyi əhatə edən uca dağların başında sərhədi qoruyan igidlərin sayəsində torpaqlarımızı rahat şəkildə əkib-becərir, əmin-amanlıq içərisində yaşayırıq. Yarmarkaya gəldikdə isə meyvə qurularına maraq çoxdur, alıcı yetərincədir...

*Ailə təsərrüfatçıları ilə qısa söhbətdən sonra yaradılan təəssüratlarımız bizə ulu babalarımızın dillər əzbəri olan "Ailə kiçik bir dövlətdir" fikrini xatırladır. Görünən odur ki, əgər bu kiçik dövlətin hər bir üzvü əl-ələ verib çalışsa, qazandığı uğurlarla həm özlərinin maddi vəziyyətini yüksəldər, həm də dövlətimizin daha da qüdrətlənməsinə, iqtisadiyyatının inkişafına əvəzsiz töhfələr bəxş edə bilər.*

**✍ Ramiyyə ƏKBƏROVA**
**✍ Nail ƏSGƏROV**

## Standartlara uyğun fəaliyyət təşviq olunur

Muxtar respublika iqtisadiyyatının dinamik inkişafı, ixrac potensiallı məhsul istehsalının artması və yeni istehsal sahələrinin yaradılması keyfiyyətə nəzarət işinin əhəmiyyətini günü-gündən artırmaqdadır. Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti tərəfindən yerli məhsulların daxili və xarici bazarlarda rəqabətədavamlı olması üçün keyfiyyət standartlarına əməl edilməsinə nəzarət işi cari ilin noyabr ayı ərzində də davam etdirilmiş, ümumilikdə, 67, o cümlədən qida məhsullarının 56 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya sınağı aparılmış, nöqsan aşkar edilməmişdir.

Bal və digər arıçılıq məhsulları gəlirliliyinə və faydalılığına görə aqrar sahədə mühüm yer tutur. Naxçıvanda bu sahənin davamlı inkişafı məqsədilə "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"nın icrası istiqamətində Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Baytarlıq Xidmətinin, Dövlət Sığorta Xidməti publik hüquqi şəxsin və Naxçıvan Muxtar Respublikası Arıçılar İctimai Birliyinin nümayəndələri ilə birlikdə ötən ay Culfa rayonunun Əbrəqunus, Naxçıvan şəhərinin Qaraxanbəyli kəndlərində arıçılıq məhsulları istehsalçıları ilə maarifləndirmə xarakterli görüşlər keçirilmiş, müvafiq standart üzrə bal məhsulunun tərkibində saxarozanın və nəmliyin yolverilən həddinə dair məlumatlar çatdırılmışdır.

Qəbul edilmiş müvafiq Dövlət proqramlarının icrası istiqamətində ötən ay emal olunmuş kənd təsərrüfatı məhsullarının 18, meyvə-tərəvəz məhsullarının isə 11 halda keyfiyyət göstəriciləri üzrə laboratoriya analizləri aparılmış, nəticələrin standartlara uyğunluğu müəyyən olunmuşdur.

Hesabat ayında muxtar respublika üzrə 5 ailə təsərrüfatına istehsal etdiyi məhsulların etiketlərində məhsulun adının və digər məlumatların orfoqrafik qaydalara uyğun yazılmasının, saxlanma şəraitinin və yararlılıq müddətinin qüvvədə olan standartların tələblərinə uyğun göstərilməsini təmin etmək məqsədilə metodik köməklik göstərilmiş, 450 etiket ailə təsərrüfatlarına təqdim olunmuşdur.

Ailə təsərrüfatı məhsullarının keyfiyyətinə nəzarətin aparılması üçün ay ərzində İqtisadiyyat Nazirliyinin əməkdaşları ilə birgə məhsullardan 5 halda nümunələr seçilərək laboratoriyaya təqdim olunmuş, sınaqların nəticələrinin standartlara uyğunluğu müəyyən edilmişdir.

2021-ci ilin 20-21 noyabr tarixlərində "Ailə təsərrüfatı məhsulları" satış yarmarkası təşkil olunmuş və yarmarkaya 481 ailə təsərrüfatı tərəfindən məhsul çıxarılmışdır. Ümumilikdə, 12 min 575 nəfərin iştirak etdiyi yarmarkada 464 min 680 manat həcmində məhsul satılmışdır. Bununla yanaşı, yarmarkada "Naxçıvan Məhsulları" publik hüquqi şəxs tərəfindən 2580 manat dəyərində ailə təsərrüfatı məhsulu alınmışdır.

2017-ci il 25 iyul tarixli beşinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı sessiyasında xarici bazarlara çıxış imkanına malik məhsul istehsalına diqqətin artırılması, qarşıdakı dövrdə bu imkanların bir daha araşdırılması, ixracın coğrafiyasının genişləndirilməsi üçün verilmiş tapşırıqların, "Naxçıvan Muxtar Respublikasında ixrac potensialının və ixraca dövlət dəstəyinin artırılması ilə bağlı Tədbirlər Planı"nın icrası istiqamətində muxtar respublikadan kənara məhsulların göndərilməsi və satışı üzrə fəaliyyət çərçivəsində sahibkarlıq subyektlərinin və ailə təsərrüfatlarının iqtisadi aktivliyi ardıcıl qaydada dəstəklənmiş, digər bölgələrimizdə fəaliyyət göstərən "Naxçıvan məhsulları" mağazalar şəbəkəsinə tələbata uyğun olaraq davamlı qaydada məhsulların göndərilməsi təmin edilmişdir.

2021-ci ilin 24 noyabr tarixində muxtar respublikada ixracyönlü məhsul istehsal edən və keyfiyyəti idarəetmə sistemi tətbiq edilməmiş müəssisələrin nümayəndələrinin iştirakı ilə ISO beynəlxalq keyfiyyəti idarəetmə standartları və ixrac qabiliyyətli məhsulların əmtəə nişanlarının mühafizəsi və beynəlxalq sistem vasitəsilə qeydiyyatı istiqamətində maarifləndirici seminar keçirilmiş, ISO 9001 keyfiyyəti idarəetmə sistemlərinin əsas prinsip və tələbləri izah edilmiş, əmtəə nişanlarının məhsul ixrac olunacaq ölkələrdə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı vasitəsilə beynəlxalq mühafizəsinin təmin olunması prosedurları barədə təsərrüfat subyektləri məlumatlandırılmışdır.

Muxtar respublikada istehsal olunan alkoqollu içkilərin keyfiyyətinin diqqətdə saxlanılması üçün 3 müəssisədə istehsal olunan arağın 12, pivənin 1 və məhsul istehsalında istifadə olunan suyun 1 halda laboratoriya analizləri aparılaraq keyfiyyət göstəricilərinin standartlara uyğunluğu müəyyənləşdirilmişdir.

Hesabat ayında Fövqəladə Hallar Nazirliyi və Dövlət Gömrük Komitəsi ilə birgə idxal olunan qaz cihazlarına baxış keçirilmiş və müvafiq təhlükəsizlik sistemi ilə təmin olunmayan cihazların idxalına icazə verilməmişdir.

Muxtar respublikada keyfiyyət infrastrukturunun təkmilləşdirilməsi istiqamətində tədbirlər davam etdirilməkdədir.

***Naxçıvan Muxtar Respublikası Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti***

*Muxtar respublikada müasir suvarma sistemlərinin quraşdırılması və suvarma suyundan səmərəli istifadə olunmasına nəzarət həyata keçirilir, su təsərrüfatı sistemlərinin istismarının yaxşılaşdırılması diqqət mərkəzində saxlanılır.*

## Torpaqların su təminatı yaxşılaşdırılır

Əkin sahələrinin suya olan tələbatını ödəmək üçün noyabr ayında da bir sıra tədbirlər görülmüş, su istifadəçilərinə 19,63 milyon kubmetr su verilmiş, bunun müqabilində 16 min 127 hektar torpaq sahəsi suvarılmışdır. Ay ərzində 11,4 kilometr beton və torpaq kanal, 33,96 kilometr ara arx və 7 kilometr kollektor lildən təmizlənmiş, 4,47 kilometr uzunluğunda yeni suvarma boru xətti, Babək rayonunun Uzunoba gölü ətrafında yeni tikilmiş bağ evlərini içməli su ilə təmin etmək məqsədilə 3,2, Şahbuz rayonunun Badamlı və Qızıl Qışlaq kəndlərinin içməli su təminatını yaxşılaşdırmaq məqsədilə 0,83 kilometr təzyiqli boru xətti quraşdırılmış, 0,21 kilometr kaptaj, 0,31 kilometr qapalı drenaj xətti çəkilmişdir. 2,69 kilometr mövcud içməli su, 0,68 kilometr kanalizasiya, 1,59 kilometr suvarma boru xətlərində, 1,75 kilometr təzyiqli boru xətlərində, 0,41 kilometr kaptajlarda, 0,1 kilometr qapalı drenajlarda təmir-bərpa işləri aparılmışdır. Qeyd olunan dövrdə görülmüş işlər nəticəsində Şərur, Babək və Sədərək rayonlarında, ümumilikdə, 110 hektar torpaq sahəsinin meliorativ vəziyyəti yaxşılaşdırılmışdır.

Şahbuz rayonunun Külüs, Mahmudoba və Nursu kəndlərinə aid 340 hektar torpaq sahəsində qapalı suvarma şəbəkəsinin tikinti işləri davam etdirilmiş, ərazidə 1,25 kilometr ana xətt, 2,5 kilometr paylayıcı boru xətti çəkilmiş, 12 hovuz və hidrant quraşdırılmışdır.

Kəngərli rayonunun Böyükdüz kəndinin əkin sahələrini suvarma suyu ilə təmin etmək məqsədilə Araz çayından qidalanan yeni nasos stansiyasının və təzyiqli boru xəttinin tikintisi işləri davam etdirilmişdir.

Muxtar respublikada su təminatının yaxşılaşdırılmasında subartezian quyularının və kəhrizlərin gücündən də geniş istifadə olunur. Ötən ay ərzində 57 subartezian quyusunda təmir-bərpa işləri aparılmış, 1 yeni subartezian quyusu istifadəyə verilmiş, Ordubad rayonunda



1 yeni subartezian quyusunda isə qazma işləri aparılır. 1 kəhrizdə təmir-bərpa işləri başa çatdırılmış, 5 kəhrizdə isə işlər davam etdirilmişdir.

"Rayon mərkəzi və ətraf kəndlərin içməli su təchizatı və kanalizasiya sistemlərinin yenidən qurulması" layihəsi çərçivəsində Babək rayonunun Nehrəm qəsəbəsində və Sədərək rayonunda su və kanalizasiya şəbəkəsinin, Kəngərli rayonunda su təchizatı şəbəkəsinin tikintisi davam etdirilmiş, Qarabağlar kəndində 1 subartezian quyusunda tikinti işləri başa çatdırılmışdır. Bundan əlavə, Sədərək rayonunun Dəmirçi kəndində içməli su təchizatının yaxşılaşdırılması məqsədilə tikinti işləri davam etdirilmişdir. Culfa rayonunun Yaycı kəndində əhalinin içməli su təminatının yaxşılaşdırılması məqsədilə su təchizatı şəbəkəsinin tikintisi işləri davam etdirilmiş, müxtəlif diametrli borularla 15,28 kilometr içməli su xətti quraşdırılmış, 416 evin su xəttinə birləşməsi aparılmış və Gilançayda 0,53 kilometr uzunluğunda kaptajın tikintisi başa çatdırılmışdır.

2021-2022-ci illərin payız-qış mövsümünə hazırlıq işləri ilə əlaqədar Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə verilmiş tapşırıqların icrasını təmin etmək məqsədilə cəmiyyətdə hazırlanmış "Tədbirlər Planı"nın icrası üzrə işlər davam etdirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin mətbuat xidməti***

## Akademik İsmayıl Hacıyev beynəlxalq elmi-praktik konfransda çıxış edib



Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi, Qarabağ Azadlıq Təşkilatı və Beynəlxalq Qarabağ Forumunun təşkilatçılığı ilə “Arsak: tarix və müasirlik” mövzusunda elmi-praktik konfrans keçirilib. Dünyanın bir sıra ölkələrindən azərbaycanlı və xarici mütəxəssislərin iştirakı ilə keçirilən konfrans həm ənənəvi, həm də videokonfrans formatında reallaşdırılıb. Konfransın plenar və bölmə iclaslarında tarix elmi üçün mühüm olan bir sıra məsələlərə toxunulub.

AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev konfransda “Qafqaz Albaniyasının Arsak əyaləti və Qarabağ” mövzusunda məruzə edib. Alim məruzəsində Qafqaz Albaniyasının ərazisi, burada hökmranlıq edən hakim sülalələr, ermənilər tərəfindən irəli sürülən əsassız iddialar və başqa önəmli mövzular haqqında məlumat verib.

“Albaniya ərazisində tarixən mövcud olan 12 əyalətdən biri də Arsak əyaləti olmuşdur”, – söyləyən akademik Arsak toponiminin etimologiyası, uydurma erməni təbliğatı ilə bağlı fikirlərini elm ictimaiyyətinə çatdırıb. Çoxsaylı müəlliflərdən sitatlar gətirərək tarixi mənbələrdə yer alan real faktlar əsasında təhlillər aparıb. Vurğulanıb ki, nəinki Azərbaycan, o cümlədən indiki Ermənistan ərazisində də coğrafi adların tam əksəriyyəti Azərbaycan mənşəlidir. Ad dəyişməklə onun milli mənsubiyyətini ləğv etmək mümkün deyildir. Aparılan bütün tədqiqatlara rəğmən Qarabağda yaşayan əhalinin etnik tərkibi erməni uydurmalarını rədd edir.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

*2021-ci il “Nizami Gəncəvi ili”dir*

## Naxçıvana dair əlyazmalar və Nizami Gəncəvi yaradıcılığı



Müxtəlif muzey və arxiv materiallarında Naxçıvana dair orta əsrlər əlyazmalarının tekstoloji xüsusiyyətlərinə həsr olunmuş elmi əsərlərdə, tədqiqat və oçerklərdə Naxçıvanın filosof və şairlərinin adları çəkilməklə bərabər, bir çoxlarının əsərlərindən nümunələr verilməsi öz əksini tapmışdır. Naxçıvana dair əlyazma mətnləri sahəsində bu əsərlərin, sadəcə, xronoloji ardıcıllıqla tərtib olunmuş siyahısı belə, hər bir tədqiqatçının qəlbini iftixar hissi ilə doldurur. Eyni zamanda Naxçıvan haqqında yazan şair və yazıçılar özlərinin üslubları ilə seçilirlər. Bu dahi şairlərdən biri də Nizami Gəncəvidir. Mətnşünaslıq baxımından Naxçıvana dair əlyazmalarda şairin “Xosrov və Şirin” poeması daha da zəngin xarakter daşıyır.

XII əsrdə Naxçıvanda Azərbaycan dövlətçiliyi tarixində qüdrətli Eldənizlər – Atabəylər dövlətinin yaranması Naxçıvanda əlyazma nüsxələrinin yazılması üçün əlverişli şərait yaratdı. Atabəylər sarayında fəaliyyət göstərən alimlərin əlyazmaları indi də dünya mədəniyyət xəzinəsinin nadir incilərindəndir. “X əsrdən etibarən Azərbaycanda saray ədəbiyyatı inkişaf edir. Saray ədəbiyyatında dini mövzularla bərabər, dünyəvi mövzular da mühüm yer tuturdu. Ölkədə baş verən tarixi hadisələr, ayrı-ayrı hökmdarların tərifi bu ədəbiyyatın inkişafına kömək edirdi”.

Azərbaycan Atabəylər dövlətində Atabəy Şəmsəddin Eldənizin daimi yaşayış yeri olan Naxçıvan bölgəsinin torpaqları tac (xass) torpağı idi. Həmçinin Atabəyin ixtiyarında olan Rey öz ətrafı ilə, Həmədan vilayəti, Gəncə, Beyləqan, Şəmkir və Şutur, Ərdəbil, Səlmas, Urmiya, Xoy əyalətləri də onun xass torpaqları sırasında idi. Naxçıvanın ictimai-siyasi durumu XII-XIII əsrlərdə təkcə Yaxın Şərq deyil, dünya miqyasında tanınmış Azərbaycanın görkəmli şair və mütəfəkkiri Nizami Gəncəvi, elm xadimi Nəsirəddin Tusi kimi korifeylər yetişdirdi. Müasir dünyanın ələ bir tanınmış kitab xəzinəsi tapmaq çətindir ki, orada bu iki dahinin əsərlərindən əlyazma nüsxələri olmasın. Naxçıvanda yaradılmış göstərilən zəngin kitab xəzinələri zaman-zaman dövrünün təbii fəlakətləri, yadelli işğalçıların hücumları və XX yüzilliyin əvvəllərində milli düşmənlərimiz tərəfindən Naxçıvan ərazisində törədilən qırğınlar zamanı məhv edilmişdir.

Mənbələrdən məlum olur ki, orta əsrlərdə Azərbaycanda kifayət qədər kitabçılıq mədəniyyəti olmuş və mütəfəkkirlər yaradılmış kitab fondundan lazımınca faydalanaraq cahanşümul əsərlər yazmışlar. Nizami Gəncəvi “İsgəndərnamə” əsərində bunu xüsusi qeyd edərək yazır:

*İsgəndər haqqında heç bir əsərdə*
*Məlumat görmədim yığcam bir yerdə.*
*Ən qədim tarixi əsərlərdən mən,*
*Yəhudi, nəsrani, pəhləvilərdən.*
*Ən incə sözləri alıma saldım,*
*Qabığı ataraq məğzini aldım.*
*Müxtəlif dillərdən yığdığım sözlər,*
*Bunlardan düzüldü yazdığım əsər.*

Nizami Gəncəvinin yazdığı bir neçə misrada yığcam şəkildə orta əsrlərdə Azərbaycanda mövcud olan kitab fondunun mənzərəsi verilir. Gəncə şəhərində “Dər əl-kutub” adlı kitabxanaya Azərbaycan Atabəylər hökmdarı Həddad ibn Bəkran Əbulfəzl ən-Naxçıvanini göndərir. Y.Həmavinin verdiyi məlumata görə, həmin dövrdə Gəncədə “Dər əl-kutub” adlı böyük kitabxana fəaliyyət göstərmişdir: “Bu kitabxananın xəzinədarı isə Həddad ibn Bəkran Əbulfəzl ən-Naxçıvani imiş”.

Həddad ibn Bəkran Əbulfəzl ən-Naxçıvaninin Gəncədə “Dər əl-kutub” adlı böyük kitabxanada xəzinədar olması bir daha onu göstərir ki, o kitabxananın xəzinələri məhəlli kitablarla yanaşı, yəhudi, ərəb, nəsrani, yunan, pəhləvi və başqa dillərdə yazılmış əlyazmaları ilə də zəngin olmuşdur. Professor Kamandar Şərifli “Azərbaycan əlyazma kitabı və kitabxanaları” monoqrafiyasında yazır: “Makedoniyalı Fateh və antik dövr yunan filosofları – Fales, Əflatun, Sokrat, Aristotel və başqaları haqqında iki cilddən ibarət möhtəşəm bədii abidə yaratmış bir dühə bu baxımdan əlyazma məxəzlərin müəyyən qismi ilə həmin dillərdə də tanış ola bilərdi. Pəhləvicə materialları isə, yəqin, elə orijinalda oxumuşdur”.

XII-XIII əsrlərdə Naxçıvanda mədəni irsə nəzər saldıqda bir daha görürük ki, Nizami yaradıcılığında mətn xüsusiyyətləri nə qədər zəngin və maraqlıdır. Nizami yaradıcılığında ən mühüm yeri tutan onun Atabəylərə həsr etdiyi “Xosrov və Şirin” əlyazma əsəridir ki, həm məna çalarları ilə, həm də poetik dünyagörüşü ilə dünyanı heyran edir. Şair əsərdə Atabəy Məhəmməd Cahan Pəhləvanı mədh edərək deyir:

*Şamil olan zaman hər kəsə rəhmət,*
*İki sahib adı oldu Məhəmməd.*
*Məhəmmədin biri son Peyğəmbərdir,*
*Biri də son şahdır, bu gün ömr edir.*
*Biri dini etdi zülmdən azad,*
*Biri ədalətlə dünyanı abad.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tarixi Sərəncamı ilə “Nizami ili” elan edilmiş 2021-ci ildə aparılan elmi tədqiqatlar, keçirilən çoxsaylı elmi-kütləvi tədbirlər ölkəmizdə klassik ədəbi irsimizə, milli ədəbiyyatımızın və mədəniyyətimizin görkəmli simalarına doğma münasibətin, dövlət qayğısının ifadəsidir. Eyni zamanda nizamişünaslıqda qazanılan yeni elmi nailiyyətlər dünya ədəbiyyatına nadir əsərlər bəxş etmiş dahi Nizaminin irsinin milli və bəşəri dəyərlər zəminində yenidən öyrənilməsinə töhfə də hesab etmək olar.

**Səbuhi İBRAHİMOV**
***AMEA Naxçıvan Bölməsinin əməkdaşı, dosent***

*Muxtar respublika fənn olimpiadasının qaliblərinin mükafatlandırılması mərasimi keçirilib.*

## Olimpiada qaliblərinə mükafatlar təqdim olunub



Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov çıxış edərək bildirib ki, olimpiadaların keçirilməsi xüsusi istedadlı uşaqların üzə çıxarılmasında, şagirdlərdə fənlərə olan marağın artırılmasında, onların sağlam rəqabət mühitində öz bilik və bacarıqlarını nümayiş etdirmələrində mühüm rol oynayır. Muxtar respublika fənn olimpiadaları şagirdlərin respublika fənn olimpiadalarına hazırlığında və yüksək nəticələr qazanmağında mühüm əhəmiyyətə malikdir. Fənn olimpiadalarının yekunlarına görə şagirdlərin əldə etdikləri nəticələr müvafiq fənn müəllimlərinin, eləcə də məktəbin fəaliyyətinin qiymətləndirilməsində əsas meyarlardan biri kimi nəzərə alınır. Nazir qeyd edib ki, məktəblilərin muxtar respublika fənn olimpiadası iki mərhələdə keçirilib. IX-XI sinif şagirdləri arasında Azərbaycan dili və ədəbiyyat, riyaziyyat, fizika, kimya, biologiya, informatika, tarix, coğrafiya fənləri üzrə olimpiadanın I şəhər (rayon) mərhələsində 534 şagird öz biliyini sınayıb, onlardan 182-si yüksək nəticə göstərərək final mərhələsində iştirak etmək hüququ qazanıb. Nəticələrə əsasən noyabrın 19-da keçirilən olimpiadanın muxtar respublika mərhələsində, ümumilikdə, 47 şagird qalib olub. Onlardan 12-si I, 17-si II və 18-i III yerləri tutublar.

Təhsil naziri Rəhman Məmmədov olimpiada qaliblərini təbrik edib, onlara təhsillərində uğurlar arzulayıb.

Tədbirdə Təhsil Nazirliyi Aparatının şöbə müdiri Abdulla Əsgərov çıxış edərək olimpiadanın keçirilməsinin əhəmiyyəti və təşkilati işlər barədə məlumat verib.

Olimpiadada coğrafiya fənni üzrə I yerin qalibi, Naxçıvan şəhər 5 nömrəli tam orta məktəbin şagirdi Fidan Muxtarova çıxış edərək onların yaxşı təhsil alması, bilik və bacarıqlarının inkişaf etdirilməsi üçün yaratdığı şəraitə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonda qaliblərə diplomlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası***
***Təhsil Nazirliyinin mətbuat xidməti***

## *“Sağlam gənclik-sağlam gələcək”* layihəsi çərçivəsində növbəti tədbir



Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin hazırladığı “Sağlam gənclik-sağlam gələcək” layihəsi çərçivəsində silsilə tədbirlər keçirilir. Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirdə Heydər Əliyev adına Hərbi Liseyin kursantları və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdləri iştirak ediblər.

Tədbirdə əvvəlcə şəhidlərimizin əziz xatirəsi yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının Əməkdar müəllimi Natiq Əhmədov, Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov, layihənin rəhbəri, Təməl tibb fənləri kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva, Təməl tibb fənləri kafedrasının baş müəllimi Bəxtiyar Hüseynov və digər çıxış edənlər “Sağlam gənclik-sağlam gələcək” layihəsinin uşaq, yeniyetmə və gənclərin maarifləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıblar. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin təşəbbüsü və ulu öndər Heydər Əliyevin himayəsi ilə Naxçıvan Dövlət Universitetinin 1999-cu ildə fəaliyyətə başlayan Tibb fakültəsində tələbələrin təhsili üçün lazımı şərait yaradılıb. Fakültənin nəzdində açılan, 2021-2022-ci tədris ili üçün tələbə qəbulu aparan Hərbi tibb ixtisası muxtar respublikada ali təhsilli hərbi tibbi kadrların hazırlığı istiqamətində atılan mühüm addımdır.

Qeyd olunub ki, dövlət qayğısından və yaradılan şəraitdən maksimum yararlanaraq yeni layihələr həyata keçirilir və bu tədbirlərdən də biri “Sağlam gənclik-sağlam gələcək” layihəsidir. Gənc nəslə sağlam həyat tərzinin aşılanması və əhali arasında səhiyyə maarifi işinin təşkili məqsədilə bu layihənin muxtar respublikamızın bütün təhsil müəssisələrində icra ediləcəyi diqqətə çatdırılıb.

Tibb fakültəsində təhsil alan tələbələrin vətənpərvərlik mövzusunda hazırladıqları flaşmob və təqdimatlarla yanaşı, slaydlar vasitəsilə müxtəlif mövzularda çıxışları dinlənilib, ekstremal şəraitlərdə təcili təxirəsalınmaz tibbi yardımın göstərilməsi nümayiş olunub. Tələbələr tərəfindən ilk tibbi yardımın göstərilməsi təqdimatlar, simulyasiyalar və canlı şəxslər üzərində tətbiq edilib.

Təqdimatlardan sonra universitetin hakim və tələbə heyəti Heydər Əliyev adına Hərbi Liseyin kursantlarının və Naxçıvan Qarnizonu tam orta məktəbinin şagirdlərinin müayinəsini aparıblar və maarifləndirici kitabçaları tədbir iştirakçılarına paylayıblar.

Tədbirin sonunda Tibb fakültəsinin tələbələrinə Əlahiddə Ümumqoşun Ordu komandanlığı tərəfindən fəxri fərmanlar təqdim edilib.

**Kənan CƏLİLOV**

## Könüllü gənclərimiz mükafatlandırılıb




*5 dekabr – Beynəlxalq Könüllülər Günü münasibətilə Bakı Konqres Mərkəzində 20 könüllü təşkilatının 1000-dən çox fəal üzvünün iştirakı ilə Azərbaycan könüllülərinin IV həmrəylik forumu keçirilib.*

Azərbaycan Respublikasının Gənclər Fondu, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi, ASAN Xidmət və Azərbaycan Könüllü Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə keçirilən tədbirdən əvvəl könüllülər Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil və tər güllər qoyublar. Sonra Şəhidlər xiyabanını ziyarət edən könüllülər Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini hörmətlə anıb, məzarları üzərinə tər çiçəklər düzüb, “Əbədi məşəl” abidəsinin önünə əklil qoyublar.

Bakı Konqres Mərkəzində keçirilən forum ölkədə fəaliyyət göstərən könüllü təşkilatları sərgisi ilə açılıb. İyirmi təşkilata məxsus fərdi stendlərdə Azərbaycan könüllülərinin müxtəlif sahələrdə fəaliyyəti ilə bağlı məlumatlar nümayiş olunub.

Tədbirin açılışında Azərbaycanın Dövlət Himni səsləndirilib, Qarabağ müharibəsi şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Ötən ay birinci ildönümünü qeyd etdiyimiz, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbədə könüllülər və ümumilikdə, gənclərin mühüm rol oynadığı, onların ön cəbhədə döyüşməklə yanaşı, informasiya savaşında da düşmən yalanlarının ifşa edilməsində və arxa cəbhədə müharibədən zərərçəkənlərə qayğı göstərilməsində fəal iştirak etdikləri vurğulanıb.

Forum çərçivəsində il ərzində 5 nominasiya – dövlət qurumlarında, genişmiqyaslı tədbirlərdə, sosial layihələr, ekoloji aksiyalar və uzunmüddətli könüllülük fəaliyyəti üzrə fərqlənmiş könüllülər də təltif edilib. Belə ki, 16 nəfər ilin könüllüsü, 100 nəfər isə könüllülük fəaliyyətində fərqləndiyinə görə mükafata layiq görülüb. Forumda Naxçıvanı 10 könüllü gənc təmsil edib. Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun könüllüsü Azər Kazımov “Dövlət qurumlarında könüllülük” nominasiyası üzrə “İlin könüllüsü” mükafatına layiq görülüb. Digər iki könüllü – Şamil Mamedov “Ekoloji aksiyalar könüllüsü”, Vüqar İmanov isə “Sosial layihələr könüllüsü” nominasiyasında diploma təltif olunublar.

Qeyd edək ki, mükafat alan könüllü gənclər – Hüseyn Kazımov və Şamil Mamedov Naxçıvan Dövlət Universitetinin, Vüqar İmanov isə Naxçıvan Müəllimlər İnstitutunun tələbələridir.

**✍ Ceyhun MƏMMƏDOV**

## Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi Naxçıvan Muxtar Respublikasında müəllimlərin dövlət musiqi təhsili müəssisələrinə işə qəbulu üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 7 dekabr 2021-ci il-7 yanvar 2022-ci il tarixlərdə Naxçıvan Muxtar Respublikası Dövlət İmtahan Mərkəzinin internet portalında *(www.dim.nmr.az)* "şəxsi kabinet" bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər 70 manat ödəniş məbləğini "şəxsi kabinet" vasitəsilə bank kartları ilə ödəyə bilərlər. Digər halda həmin məbləğ Dövlət İmtahan Mərkəzinin "Naxçıvanbank" ASC-dəki bank hesabına (AZ50NAXB36015000024840000AZN) ödənməli və ödənişə dair qəbz həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dan $17^{30}$-dək mərkəzə təqdim edilməlidir. Namizəd bir neçə vakant vəzifənin tutulması üçün müraciət edə bilər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

Qeydiyyatdan keçməkdə çətinlik çəkən namizədlər Dövlət İmtahan Mərkəzinə gəlməklə müraciət edə bilərlər.

***Maraqlananlar mərkəzin (036) 545-65-71 nömrəli əlaqə telefonu və ya** dim@nmr.az **elektron poçt ünvanı vasitəsilə ətraflı məlumat əldə edə bilərlər.***

| Vəzifə kodu | İxtisas | Vakant yerlərin sayı | Vakant saatların miqdarı | Qeyd |
|---|---|---|---|---|
| **1. Naxçıvan Şəhər Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **1.1. Naxçıvan Şəhər Məmməd Məmmədov adına 1 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681114 | Fleyta | 1 | 16 | |
| 681134 | Klarnet | 1 | 12 | |
| **1.2. Naxçıvan Şəhər 4 nömrəli Uşaq Musiqi Məktəbi** | | | | |
| 681444 | Skripka | 1 | 18 | |
| **1.5. Naxçıvan Şəhər Uşaq Musiqi və İncəsənət Məktəbi** | | | | |
| 681214 | Fleyta | 1 | 6 | |
| 681225 | Xoreoqrafiya | 2 | 37 | |
| 681234 | Klarnet | 1 | 6 | |
| 681240 | Nağara | 1 | 20 | |
| 681246 | Tar | 1 | 8 | |
| 681248 | Violonçel | 1 | 6 | |
| **1.6. Naxçıvan Şəhər Ərtoğrol Cavid adına Uşaq Musiqi və Bədii Sənətkarlıq Məktəbi** | | | | |
| 681514 | Fleyta | 1 | 6 | |
| | **Cəmi:** | **11 yer** | | |
| **2. Şərur Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **2.1. Şərur Şəhər Bəhruz Kəngərli adına Uşaq İncəsənət Məktəbi** | | | | |
| 682112 | Balaban | 1 | 8 | |
| 682115 | Fortepiano | 3 | 56 | |
| 682122 | Xanəndəlik | 1 | 6 | |
| 682125 | Xoreoqrafiya | 1 | 14 | |
| 682132 | Kamança | 1 | 16 | |
| 682135 | Konsertmeyster (fortepiano) | 2 | 43 | |
| 682140 | Nağara | 2 | 38 | |
| 682141 | Rəsm | 2 | 46 | |
| 682143 | Saz | 1 | 20 | |
| 682144 | Skripka | 1 | 18 | |
| **2.2. Aralıq Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682432 | Kamança | 2 | 36 | |
| 682437 | Qarmon | 1 | 24 | |
| **2.3. Çərçiboğan Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682212 | Balaban | 1 | 12 | |
| 682240 | Nağara | 1 | 14 | |
| 682246 | Tar | 1 | 16 | |
| **2.4. Ələkli Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682332 | Kamança | 1 | 16 | |
| 682335 | Konsertmeyster (fortepiano) | 4 | 76 | |
| 682338 | Musiqi ədəbiyyatı | 1 | 24 | |
| 682340 | Nağara | 1 | 8 | |
| 682345 | Solfecio | 1 | 9.5 | |
| 682346 | Tar | 1 | 16 | |
| **2.5. Şəhriyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682637 | Qarmon | 1 | 15 | |
| 682640 | Nağara | 1 | 20 | |
| 682646 | Tar | 1 | 20 | |
| **2.6. Yuxarı Daşarx Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 682512 | Balaban | 2 | 40 | |
| 682515 | Fortepiano | 1 | 22 | |
| 682523 | Xor | 1 | 12 | |
| 682534 | Klarnet | 1 | 6 | |
| 682535 | Konsertmeyster (fortepiano) | 3 | 64 | |
| 682540 | Nağara | 1 | 18 | |
| 682543 | Saz | 1 | 6 | |
| 682546 | Tar | 3 | 68 | |
| | **Cəmi:** | **46 yer** | | |
| **3. Babək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **3.1. Babək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 683146 | Tar | 1 | 4 | |
| 683143 | Saz | 1 | 6 | |
| **3.2. Cəhri Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 683340 | Nağara | 1 | 6 | |
| 683343 | Saz | 1 | 6 | |
| **3.3. Nehrəm Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 683212 | Balaban | 1 | 10 | |
| 683237 | Qarmon | 1 | 6 | |
| 683240 | Nağara | 1 | 6 | |
| **3.4. Şıxmahmud Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683437 | Qarmon | 1 | 6 | |
| 683440 | Nağara | 1 | 14 | |
| 683443 | Saz | 1 | 14 | |
| **3.5. Zeynəddin Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 683540 | Nağara | 1 | 12 | |
| | **Cəmi:** | **11 yer** | | |
| **4. Ordubad Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **4.1. Ordubad Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 684135 | Konsertmeyster (fortepiano) | 5 | 101 | |
| 684136 | Qanun | 1 | 20 | |
| 684137 | Qarmon | 1 | 12 | |
| 684143 | Saz | 1 | 22 | |
| 684144 | Skripka | 3 | 66 | |
| 684149 | Vokal | 1 | 4 | |
| **4.2. Vənənd Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 684222 | Xanəndəlik | 1 | 12 | |
| 684223 | Xor | 1 | 5 | |
| 684235 | Konsertmeyster (fortepiano) | 2 | 28 | |
| 684240 | Nağara | 1 | 10 | |
| 684243 | Saz | 1 | 8 | |
| 684246 | Tar | 2 | 30 | |
| | **Cəmi:** | **20 yer** | | |
| **5. Culfa Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **5.1. Culfa Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 685112 | Balaban | 1 | 12 | |
| **5.2. Bənəniyar Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 685215 | Fortepiano | 1 | 24 | |
| 685232 | Kamança | 2 | 32 | |
| 685235 | Konsertmeyster (fortepiano) | 2 | 29 | |
| 685240 | Nağara | 1 | 22 | |
| 685243 | Saz | 1 | 12 | |
| 685246 | Tar | 1 | 16 | |
| | **Cəmi:** | **9 yer** | | |
| **6. Kəngərli Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **6.1. Qıvraq Qəsəbə Uşaq Musiqi Məktəbi** | | | | |
| 686135 | Konsertmeyster (fortepiano) | 3 | 59 | |
| **6.2. Çalxanqala Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 686232 | Kamança | 1 | 24 | |
| 686235 | Konsertmeyster (fortepiano) | 3 | 70 | |
| 686240 | Nağara | 1 | 10 | |
| | **Cəmi:** | **8 yer** | | |
| **7. Şahbuz Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **7.1. Şahbuz Şəhər Uşaq Musiqi Məktəbi** | | | | |
| 687112 | Balaban | 1 | 20 | |
| **7.2. Kolanı Kənd Uşaq Musiqi Məktəbi** | | | | |
| 687223 | Xor | 1 | 13 | |
| 687235 | Konsertmeyster (fortepiano) | 2 | 36 | |
| 687244 | Skripka | 1 | 6 | |
| | **Cəmi:** | **5 yer** | | |
| **8. Sədərək Rayon Mədəniyyət Şöbəsi üzrə:** | | | | |
| **8.1. Sədərək Rayon Uşaq Musiqi Məktəbi** | | | | |
| 688112 | Balaban | 1 | 24 | |
| 688132 | Kamança | 1 | 24 | |
| 688135 | Konsertmeyster (fortepiano) | 5 | 111 | |
| 688137 | Qarmon | 1 | 21 | |
| 688138 | Musiqi ədəbiyyatı | 2 | 36 | |
| 688140 | Nağara | 1 | 12 | |
| 688143 | Saz | 1 | 20 | |
| 688145 | Solfecio | 2 | 36 | |
| | **Cəmi:** | **14 yer** | | |
| | **Yekun:** | **124 yer** | | |

## Naxçıvan Muxtar Respublikası üzrə 2021-ci ilin noyabr ayında verilən elektrik enerjisinin miqdarı, satışdan daxil olan vəsait və ödənilmə faizi haqqında məlumat

| S/№ | Şəhər və rayonlar | Enerjinin miqdarı (min kvt/saat) | Enerjinin dəyəri (min manat) | Toplanan vəsait (min manat) | Ödənilmə faizi |
|---|---|---|---|---|---|
| 1. | Naxçıvan şəhəri | 4341 | 321,2 | 321,2 | 100,0 |
| 2. | Şərur rayonu | 799 | 64,0 | 64,0 | 100,0 |
| 3. | Babək rayonu | 1572 | 126,9 | 126,9 | 100,0 |
| 4. | Ordubad rayonu | 747 | 61,3 | 61,3 | 100,0 |
| 5. | Culfa rayonu | 709 | 58,4 | 58,4 | 100,0 |
| 6. | Kəngərli rayonu | 683 | 59,4 | 59,4 | 100,0 |
| 7. | Şahbuz rayonu | 325 | 26,8 | 26,8 | 100,0 |
| 8. | Sədərək rayonu | 161 | 13,3 | 13,3 | 100,0 |
| 9. | Muxtar respublikanın müəssisə və təşkilatları | 26444 | 2648,5 | 2630,9 | 99,3 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **35781** | **3379,8** | **3362,2** | **99,5** |

**Qeyd:** Noyabr ayında texniki itki nəzərə alınmaqla verilən 35 milyon 781 min kilovat-saat elektrik enerjisinin dəyəri 3 milyon 379 min 800 manat olmuş, cəmi 3 milyon 362 min 200 manat vəsait toplanmışdır ki, bu da istifadə olunan enerjinin dəyərinin 99,5 faizini təşkil edir.

## Naxçıvan Muxtar Respublikası üzrə 6 dekabr 2021-ci il tarixə taxıl səpininin gedişinə dair məlumat

hektarla

| | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 2319 | 1894 | 425 |
| 2. | Babək rayonu | 8409 | 5497 | 2912 |
| 3. | Ordubad rayonu | 629 | 154 | 475 |
| 4. | Culfa rayonu | 4430 | 3782 | 648 |
| 5. | Kəngərli rayonu | 4771 | 2689 | 2082 |
| 6. | Şahbuz rayonu | 1085 | 898 | 187 |
| 7. | Sədərək rayonu | 1785 | 492 | 1293 |
| 8. | Naxçıvan şəhəri | 611 | 468 | 143 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **24039** | **15874** | **8165** |

### *İtmişdir*

Abdullayev Qibləli Məcid oğlunun adına olan JN-379$^{A}$ inventar nömrəli, 10310005 kodlu "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Kazımov Şamil Kərim oğlunun adına olan 765135 nömrəli sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Nəsirli Famil Bəşir oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

***

Səfərov Zakir Cəbrayıl oğlunun adına verilmiş sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 1014